# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №25 (65) • 21.11.2011

AzadliqRadiosu.az

**İlham Əliyevin mühafizəsindən cıxarılan zabitlər şikayət edirlər** səh.5

**Avtomobil «rastomoşkasında» nə dəyişib?** səh.6

K.Eşton: **«İnsan hüquqları müstəsna əhəmiyyət daşıyır»** səh.8

**Molla radioya nədən şikayət etdi?** səh.10

**Məhbusların vəziyyəti necədir?** səh.11

Rektor: **«Kafedra müdirliyini başqası icra edir»** səh.12

**Bir şeir dəftəri - 250 min dollara!** səh.13

**Tikintidə fəhlə işləyən nadir səs sahibi** səh.15

# Yazıçı Rafiq Tağıya sui-qəsd edildi



Naməlum adam ona 6 bıçaq zərbəsi vuraraq qaçıb səh.3

## «Amnesty International»: Azərbaycanda vəziyyət daha da pisləşib

Nüfuzlu beynəlxalq insan haqları təşkilatı Azərbaycanda əsas azadlıqların vəziyyətindən bəhs edən xüsusi hesabatını yayıb. «Çiçəklər açmayan bahar: Azərbaycanda cilovlanmış azadlıqlar» adlanan sənəddə nəticə kimi qeyd edilir ki, təşkilatın 2009-cu ildə yaydığı hesabatından bəri Azərbaycanda vəziyyət daha da pisləşib. səh.2

Balans



**Pulsuz dərmanlar apteklərə necə çıxır?** səh.9

**Akademik canlı efirdə ağladı...** səh.10

**Məmurun milyonları kimə qalacaq?** səh.14

Рафик Алиев: **«На меня не может повлиять и президент...»** səh.7

# «Amnesty İnternational»: *Azərbaycanda vəziyyət daha da pisləşib*

**Amnesty İnternational Beynəlxalq İnsan Haqlarını Müdafiə Təşkilatı Azərbaycanda əsas azadlıqların vəziyyətindən bəhs edən xüsusi hesabatını yayıb. «Çiçəklər açmayan bahar: Azərbaycanda cilovlanmış azadlıqlar» adlanan hesabatda bu ilin martında baş verən etiraz aksiyalarında həbs olunanların durumundan bəhs edilir.Noyabrın 16-da yayılan sənədə görə, Azərbaycanda küçədə «Azadlıq» şüarı səsləndirmək 10 gününü, başqalarını da bu şüarı səsləndirməyə cəlb etmək isə ömrünün üç ilini həbsdə keçirməyə gətirib çıxara bilər. Sənəddə nəticə kimi qeyd edilir ki, təşkilatın 2009-cu ildə yaydığı hesabatından bəri Azərbaycanda vəziyyət daha da pisləşib: «Hazırda bu ölkədə tənqidi söz deyənə dözüm çox aşağı səviyyədədir. Siyasətdə, jurnalistikada, təhsildə, hətta sosial şəbəkələrdə hökumətin ünvanına tənqidi çıxış edənlər bir qayda olaraq cəzalandırılır. Beynəlxalq dairələrin bu cür cəza tədbirlərinə susqun reaksiyası hökumətin əl-qolunu daha da açır, ona yardım vermiş olur»,- deyə hesabatda bildirilir.**

Hesabatın Azərbaycana aid hissəsini Bakıda təşkilatın Avrasiya bölümünün rəhbəri John Dalhuisenlə Azərbaycan və Mərkəzi Asiya üzrə təhqiqatçısı Natalia Nozadze təqdim ediblər.

**«AZƏRBAYCANDA DEMOKRATİYANIN «SÜMÜKLƏRİ» FORMALAŞIB, AMMA SÜMÜK ÜZƏRİNDƏ «ƏT» YOXDUR»**

*John Dalhuisenə görə, müstəqilliyin əldə edilməsindən ötən 20 il ərzində Azərbaycanda iqtisadi inkişaf və sosial-siyasi sabitlik təmin olunsa da, demokratiyaya yol açan hüquqlara hörmət əldə olunmayıb:* «Son 20 ildə Azərbaycanın nə əldə etdiyinə nəzər salsaq görərik ki, demokratiyanın «sümükləri» formalaşıb, amma üzərində «ət» yoxdur. Müxalifət partiyaları mövcuddur, amma fəaliyyət göstərə bilmirlər. Azad media çap oluna bilir, amma nə deməyə, nə yazmağa gəldikdə çox ehtiyatlı olmalıdırlar. O cümlədən QHT-lər. Onlar da fəaliyyət göstərə bilirlər, ancaq istənilən an da bağlana bilərlər».

<u>NATALİA NOZADZE:</u> **«ƏSLİNDƏ MART-APREL HADİSƏLƏRİ VƏZİYYƏTİN PİSLƏŞDİYİNİ GÖSTƏRİR»**

*Qurumun Azərbaycan üzrə araşdırmaçısı Natalia Nozadze 2009-cu il hesabatından sonra ötən dövr ərzində Azərbaycanda insan haqlarının daha da pisləşməsini göstərən bəzi nümunələr göstərir:* «Əslində mart-aprel hadisələri Azərbaycanda vəziyyətin necə pisləşdiyini göstərir. Azərbaycan hökuməti addımlar atır ki, ölkədə müxalif fikirlər boğulsun və istənilən bu cür çıxış və etirazlar yatırılsın».

<u>İSA QƏMBƏR:</u> **"BU HESABAT HƏQİQƏTİN DAHA YAXŞI ANLAŞILMASINA XİDMƏT EDİR"**

*Müsavat başqanı İsa Qəmbər hesabatın tam reallığı əks etdirdiyini düşünür:* «Artıq beynəlxalq birlik dərk etməyə başlayıb ki, azadlıqlar, sadəcə olaraq, bir ideal deyil. Azadlıqlar, demokratiya, insan haqları həm də dünyanın təhlükəsiz və firavan yaşaması üçün önəmli fundamental məsələdir. Hesab edirəm ki, Amnesty İnternationalın bu hesabatı həqiqətin daha yaxşı anlaşılmasına xidmət edib və edəcək».

**«YAYDA HƏBSDƏN BURAXILANLARIN YERİNİ APREL MƏHBUSLARI TUTUB»**



Səidə Qocamanlı

*Hüquq müdafiəçisi Səidə Qocamanlı hesabatla qismən razıdır. Səidə Qocamanlı deyir ki, o, 2009-cu ildən sonra Azərbaycanda vəziyyətin daha da pisləşməsi fikrinə birmənalı yanaşmır:*




«Ona görə ki, bu sahədə 2009-cu ildən bəri, qismən də olsa, irəliləyişlər var».

Hüquq müdafiəçisi hökumətin atdığı müsbət addımlara bu ilin yayında jurnalist Eynulla Fətullayevlə yanaşı bir sıra siyasi məhbusların azadlığa buraxılmasını misal çəkir. Amma həm də etiraf edir ki, yayda həbsdən buraxılan siyasi məhbusların yerini sonradan aprel məhbusları tutub.

**HÖKUMƏT HESABATI BİRTƏRƏFLİ, QƏRƏZLİ SAYIR...**

Azərbaycan hökuməti isə Amnesty İnternational təşkilatının hesabatını birtərəfli, qərəzli, ayrı-ayrı şəxslərin fərdi fikirlərinə əsaslanmış sənəd hesab edir. Prezident Administrasiyasından Amnesty İnternationala təqdim edilən 8 səhifəlik arayışda qeyd olunur ki, hesabat əks olunan hadisələrə dair zəruri araşdırma aparmadan və hökumətin mövqeyi sorğu edilmədən hazırlanıb. Təşkilata tövsiyə olunur ki, bu cür hesabatlarda iddia olunan məlumatların təsdiq edilməsi üçün qabaqcadan rəsmi dövlət orqanlarına müraciət etsin.

**AMNESTY İNTERNATİONAL TƏŞKİLATI HÖKUMƏTLƏ GÖRÜŞƏ HƏLƏ DƏ ÜMİDLİDİR**

*Ancaq təşkilatın Avrasiya bölümünün rəhbəri John Dalhuisen deyir ki, həftə ərzində çox çalışsalar da, hökumət nümayəndələri ilə görüşə nail ola bilməyiblər:* «Biz belə cavab aldıq ki, indi görüş üçün məqsədəuyğun vaxt deyil».

Bununla belə, John Dalhuisen hökumətlə görüşüb-danışmaq ümidini itirmir. Deyir ki, xeyli müzakirə olunası məsələlər olduğundan onlar belə bir görüşün tezliklə baş tutacağına ümidlidirlər.

***Maarif Çingizoğlu***

# Yazıçı Rafiq Tağıya sui-qəsd edildi

## Naməlum adam ona 6 bıçaq zərbəsi vuraraq qaçıb


R.Tağı əməliyyatdan sonra

**Tanınmış yazıçı Rafiq Tağı noyabrın 19-da axşam saatlarında işdən evə gedərkən bıçaqlanıb. O, ağır vəziyyətdə 1 saylı xəstəxanaya çatdırılıb və üzərində 6 saatdan çox əməliyyat aparılıb. Əməliyyat noyabrın 20-si saat 6 radələrində başa çatıb və yazıçı xəstəxananın reanimasiya şöbəsinə köçürülüb.**

Əməliyyatda iştirak edən həkimlərdən Abbas Abbasov AzadlıqRadiosuna bildirib ki, ölüm təhlükəsi olmasa da, Rafiq Tağının vəziyyəti kifayət qədər ağırdır. Vurulan zərbələr əsasən ürək ətrafındadır. Yazıçının qabırğaları sınıb və əməliyyat zamanı onun dalağı çıxarılıb. Cərrahın dediyinə görə, Rafiq Tağı çoxlu qan itirib. Yaxınlarının verdiyi məlumata görə, hücumdan sonra Rafiq Tağı özü evə gəlib, telefonla danışıb və bütün bu müddət ərzində bədənində güclü qanaxmalar olub.

Oğlu Asiman Tağı bunu təsdiq edib: "Mənə zəng edib dedilər, işdə idim. Gəldim gördüm ki, atam qan içərisindədir. Özü danışırdı, amma yaralarından qan axırdı".

Qardaşlarının dediyinə görə, Rafiq Tağı hadisədən bir qədər əvvəl işlədiyi 8 saylı təcili yardım stansiyasından çağırışa gedib və bir nəfəri ağır vəziyyətdə indi özü əməliyyat olunduğu cərrahiyə şöbəsinə təhvil verib. Yarım saat sonra isə özü 6 bıçaq yarası ilə xəstəxanaya aparılıb.

Polis hadisə ilə araşdırmalara başlayıb. Onun ailə üzvlərini dindiriblər və hadisə baş verən ərazini araşdırıblar. Hələlik hadisənin hansı səbəbdən baş verdiyi bəlli deyil. Yaxınları Rafiq Tağıya hücumu daha çox onun yazıları ilə əlaqələndirirlər.

Amma xəstəxanada olan hüquq-mühafizə orqanlarının əməkdaşları iddia edir ki, hadisə qarət məqsədi ilə ola bilər. Hadisə ilə bağlı hələ ki, hüquq-mühafizə orqanları hər hansı rəsmi məlumat yaymayıblar. Hadisəni eşidən kimi xəstəxanaya gələn yazıçılar Baba Vəziroğlu ilə Qorxmaz Şıxəliyev dostları Rafiq Tağının son vaxtlar belə hücuma məruz qalacaq yazı yazdığını xatırlamadıqlarını deyirlər.

**YAZIÇI NARKOZDAN AYILIB VƏ DANIŞIB**

Rafiq Tağı əl hərəkətləri ilə həkim və jurnalistlərə hadisənin necə baş verdiyini anlatmağa çalışıb. O, əl işarələri ilə bildirib ki, ona bir nəfər bıçaqla 6 zərbə vurub. Rafiq Tağının həyat yoldaşı və oğlu yazıçının bıçaqlanması ilə bağlı polisə ifadə verirlər. Bu barədə AzadlıqRadiosuna yazıçının evindən məlumat veriblər. Rafiq Tağının qardaşı AzadlıqRadiosunun müxbirinə deyib ki, əməliyyatdan sonra yazıçının vəziyyəti nisbətən yaxşılaşıb. O, həkimlərdən xəstəxanadan nə vaxt çıxarılacağını soruşub.

Xatırladaq ki, dünən Rafiq Tağının həyat yoldaşı və oğlu yazıçının bıçaqlanmasıyla bağlı polisə ifadə verirlər.

İxtisasca həkim olan Rafiq Tağı Azərbaycanda tanınmış yazıçılardandır. O, Bakıdakı 8 saylı təcili-tibbi yardım stansiyasında işləyir. Onun publisistik yazıları dəfələrlə cəmiyyətdə ciddi polemikalara səbəb olub. 2007-ci ildə isə işlədiyi "Sənət" qəzetində çap etdirdiyi "Avropa və biz" məqaləsinə görə həbs edilib. Dindarlar onun bu məqalədə Məhəmməd peyğəmbərin ünvanına xoşagəlməz ifadələr işlətməkdə, xristian dəyərlərini islamdan üstün tutmaqda ittiham edirdilər.

Yazıya görə İranda ayətullah Fazil Lənkərani onun ölümünə fitva da vermişdi. Bu məqaləyə görə milli, irqi və dini düşmənçiliyi qızışdırmaq ittihamı ilə Rafiq Tağı 3 il, qəzetin redaktoru Samir Sədaqətoğlu isə 4 il müddətinə azadlıqdan məhrum edilmişdi. Amma onlar 8 aydan sonra prezidentin əfv fərmanı ilə azadlığa çıxmışdılar.

**AzadliqRadiosu.az saytında hadisədən sonra çəkilən videolara baxmaq olar.**

# Samir Cavadzadə saxlanıb



**Bu barədə APA-ya Nəsimi Rayon Polis İdarəsindən bildirilib. Məlumata görə, Samir Cavadzadə otaq yoldaşı və dostu Elvin Hüseynovu bıçaqlaması faktı ilə əlaqədar saxlanıb. Noyabrın 21-də Samir Cavadzadənin barəsində Nəsimi Rayon Məhkəməsi tərəfindən həbs-qətimkan tədbirinin seçiləcəyi bildirilir. Xatırladaq ki, bıçaqlanma hadisəsi sentyabrın 20-də Nəsimi rayonu, Mirəli Qaşqay küçəsi 32 ünvanında qeydə alınıb.**

İstintaq başa çatdıqdan sonra məhkəmə S. Cavadzadənin törətmiş olduğu cinayəti sübuta yetirəcəyi təqdirdə onu 3 ildən 8 ilədək azadlıqdan məhrum etmə cəzası gözləyir. Samir Cavadzadə 2008-ci ildə Azərbaycanı "Eurovision" yarışmasında təmsil edib.

# AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Əvəz Zeynallı həbsxanadan «Azadlıq» qəzetinə yazıb...**



**Qəddafinin oğlu Saif al İslam həbs edilib**

# «Ümummilli lider haqqında» qanun olacaq?


Jalə Əliyeva

**«İşdən sonra» proqramında həmin qanun layihəsini təklif edən deputat Jalə Əliyeva və jurnalist Şahvələd Çobanoğlu «Bu, lazımdırmı?» sualı ətrafında müzakirə aparırlar.**

Xədicə İsmayılova:

**- Jalə xanım, niyə hesab edirsiniz ki, ölkəyə «Ümummilli lider haqqında» qanun lazımdır?**

Jalə Əliyeva:

- Milli Məclis «Eks prezidentlər haqqında» qanun layihəsini üçüncü oxunuşda qəbul etdi. Bu, Azərbaycan müstəqillik əldə etdikdən sonra prezident olmuş Ayaz Mütəllibov, Əbülfəz Elçibəy və Heydər Əliyev haqqında, onların prezident kimi və prezidentlikdən sonrakı dövrdə fəaliyyətlərini təmin etmək üçün irəli atılan bir qanundur. Mən indi o qanun haqqında danışmayacağam. Çünki o, ictimaiyyətə məlumdur. Amma bunların içərisində Heydər Əliyev haqqında ayrıca bir qanunun hazırlanması...

Xədicə İsmayılova:

**- Üzr istəyirəm, bu, ümummilli lider haqqında qanundur, yoxsa Heydər Əliyev haqqında qanun?**

Jalə Əliyeva:

- Ümummilli liderimiz Heydər Əliyevdir. Eyni insan haqda danışırıq.

Xədicə İsmayılova:

**- Məsələyə fərqli baxışlar ola bilər...**

Jalə Əliyeva:

- Ola bilər. Amma mənim təklif etdiyim ümummilli lider Heydər Əliyev haqqında qanundur. Niyə? Təbii ki, hər üç şəxs Azərbaycanda müxtəlif dövrlərdə prezident olub. Lakin məncə, Heydər Əliyevi digərlərindən daha fərqli şəkildə təqdim etməyə ehtiyac var. Bu, mənim sırf şəxsi fikrimdir. Təbii ki, plüralist, çoxfikirli bir cəmiyyətdə obyektiv və subyektiv qarşılamalar ola bilər. Biz buna da hazırıq. Amma mənim nəzərimdə xalq artıq öz liderini seçib. Ümumiyyətlə, müstəqilliyin bu 20 illik tarixinə nəzər yetirdikdə, hansı liderin hansı rolu olduğu aydın görünür.

Xədicə İsmayılova:

**- Doğrusu, mən Sizin bu təklifi konkret bir adla bağladığınızı güman etmirdim. Düşünürdüm ki, bu, ümumilikdə bir qanun layihəsidir. Sonra təklif olunacaq ki, xalq müəyyən etsin və s. Amma maraqlıdır bunu da eşitmək. Şahvələd bəy, Siz necə hesab edirsiniz?**

Şahvələd Çobanoğlu:

- Bu cür qanunlar çox nadir ölkələrdə var. O ölkələrin özündə də tarix göstərdi ki, onlar ancaq şəxsiyyətə pərəstiş yaradır... Sonuncu dəfə belə bir ideyanın Qazaxıstanda səsləndiyini eşitdim. Nazarbayev ondan imtina etdi və parlamentdən xahiş etdi ki, belə bir məsələni qaldırmasın. Liderlik könül sultanlığı məsələsidir. İnsanların qəlbində olan məsələni heç vaxt qanuna salmazlar. Ayrıca Heydər Əliyev özü bir partiya sədri olub. Ölkənin prezidenti olub. Bununla bərabər eks-prezidentlər haqqında qanun da qəbul edilir. Bir partiyanın lideri necə ola bilər ki, bütöv cəmiyyətin lideri olsun? Bu, Konstitusiyanın özünə də ziddir. Konstitusiyada, qanunlarda belə bir söz eşitmisinizmi? Ümummilli lider onun tərəfdarlarının ona verdiyi sözdür. Onun tərəfdarlarının qəbul etdiyi statusdur. Onu qəbul etməyənlər də var.

Jalə Əliyeva:

- Bu, xalqın verdiyi sözdür.

Şahvələd Çobanoğlu:

- Xalq haqqında da qanun yoxdur. Xalq Dədə Qorquda «dədə» deyir. Onun haqqında qanun lazımdırmı ki...

**Verilişi tam olaraq AzadliqRadiosu.az saytında dinləyə bilərsiniz.**

***Xədicə İsmayılova, Kamran Mahmudov***


Ə.Elçibəy və H.Əliyev

# "Eks-prezidentlər haqqında" qanun üçüncü oxunuşdan da keçdi

**Noyabrın 15-də Milli Məclisdə «Azərbaycan Respublikasının keçmiş prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında» konstitusiya qanunu layihəsi ikinci və üçüncü oxunuşda qəbul olunub. Üçüncü oxunuşda deputatlardan 110-u layihəni dəstəkləyib, 1-i əleyhinə çıxıb.**

Layihə əvvəllər prezident olmuş şəxsin və onun ailə üzvlərinin təminat qaydalarını müəyyən edir. Layihəyə əsasən, keçmiş prezident hazırda prezident olan şəxsin aylıq əməkhaqqının 50 faizi qədər aylıq pensiya almalıdır.

Keçmiş prezidentə üç nəfərdən artıq olmayan təhlükəsizlik heyəti, bir sürücü, bir avtomobil də verilir. Keçmiş prezident və onun həyat yoldaşı baş prokurorun icazəsi olmadan *(cinayət başında yaxalanma hallarından başqa)* cinayət məsuliyyətinə cəlb edilə, tutula bilməz. Bu sənəd konstitusiya qanunu olduğundan 6 aydan sonra parlamentdə bir daha səsverməyə çıxarılmalıdır. Yalnız bundan sonra qanun qüvvəyə minəcək.

***İlqar Rəsul***





Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadliqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadliqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

Veriliş zamanı suallarınızı verin:

SMS: (+994 50 744 10 17) Telefon: 436 – 77 - 41

Elektron ünvan: efir@azadliqradiosu.az

# İlham Əliyevin mühafizəsindən çıxarılan zabitlər şikayət edirlər



Xüsusi Dövlət Mühafizə Xidmətinin "Beta" dəstəsinin sabiq zabiti Asif Lətifov

**«17 il prezidentə xidmət etmişəm, evim-eşiyim, heç nəyim yoxdur, gəl mənim bir yaşadığım yerə bax. Səbəb qoyaydın qarşıma ki, səni buna görə işdən çıxarıram. Məndən xoşun gəlmirdisə, çağıraydın, deyərdin ki, öz ərizənlə işdən çıx. Yoxsa ki, niyə mənim üzərimə maddə qoyub, ləkələyib işdən çıxardırsan?»**

Xüsusi Dövlət Mühafizə Xidmətinin (XDMİ) xüsusi təyinatlı «Beta» dəstəsinin sabiq mühafizə zabiti, baş leytenant Asif Lətifov deyir ki, bu ilin mart ayında Əmək Məcəlləsinin xidmətə uyğunsuzluq maddəsi ilə işdən çıxarılıb. Ancaq deməsinə görə, ona konkret hansı hərəkəti etməsinə görə işdən çıxarıldığı deyilməyib: «Gah dedilər Milli Təhlükəsizlik nazirinin bayramını təbrik etmisən, gah dedilər telefon mesajlarında təxribat xarakterli fikirlər yazmısan. Gah dedilər özündə güllə saxlamısan».

### «ÜZÜMÜ PREZİDENTƏ TUTUB DEYİRƏM Kİ... »

*Asif Lətifov hesab edir ki, əslində o, xüsusi təyinatlı «Beta» dəstəsində korrupsiya hərəkətlərinə, Xüsusi Dövlət Mühafizə Xidmətinə işə qohumbazlıq prinsipləri ilə götürülmə hallarına qarşı çıxdığına görə işdən çıxarılıb:* «Mənim fəxri fərmanlarım, 5 medalım var. 2010-cu ildə 15 il qüsursuz xidmətimə görə medalla təltif olunmuşam. İndi isə məni xidməti uyğunsuzluqla işdən çıxarıblar. Üzümü prezidentə tutub deyirəm ki, cənab prezident, sizi aldadırlar. Vaqif Axundov *(Xüsusi Dövlət Mühafizə Xidmətinin rəhbəri-E.C)* mühafizəni yaxşı təşkil etmir. Çünki o, bizim kimi peşəkar kadrları işdən çıxarır, qeyri-peşəkar olan öz qohumlarına orda yer edir».

### PREZİDENTƏ YAZILANLAR GENERALIN MÜAVİNİNƏ ÖTÜRÜLÜR

*Asif Lətifov prezidentə çoxsaylı məktublar göndərib ki, məsələnin araşdırılması təmin olunsun. Ancaq o, yazdığı məktubların prezidentdən gizlədilməsi qənaətindədir:* «Generalın müavini məni çağırdı dedi ki, özünə əziyyət vermə, prezidentə yazdığın məktublar hamısı mənim stolumun üstünə gəlir».

Asif Lətifov deyir ki, işdən çıxarılması barədə əmrin surətini ona vermirlər. Buna görə də o, məhkəməyə müraciət edə bilmir. Uzun illər həmin dəstədə xidmət etmiş və 4 il əvvəl işdən çıxarılmış Seymur Əlicanov da deyir ki, ona heç bir ciddi səbəb göstərilməyib: «Çağırıb dedilər ki, ya ərizəni yaz, ya da səni maddə ilə işdən çıxarmalı olacağıq».

### «ƏMRİN SURƏTİNİ ALA BİLMİRƏM Kİ, MƏHKƏMƏYƏ GEDİM»

Seymur Əlicanovun sözlərinə görə, işdən çıxarıldıqdan sonra onu çağıraraq deyiblər ki, səbəb qayınatasının 70-ci illərdə məhkum olunmasıdır. Seymur Əlicanov nə vaxtsa ayaqqabı fabrikində işləmiş qayınatasının 1 il icbari həbsə məhkum olunmasına görə 4 il əvvəl işdən çıxarılmasını absurd hesab edir. Deyir ki, rəhbərlik onun kimiləri işdən çıxarıb yerinə öz qohumunu götürür. Seymur Əlicanov 4 il əvvəl işdən çıxarılmasına baxmayaraq, əmrin surətini ala bilmir ki, məhkəməyə müraciət etsin.

### «BETA»nın KOMANDİRİNDƏN CƏMİ 2 CÜMLƏ

*Xüsusi Dövlət Mühafizə Xidmətinin kadrlar idarəsinin rəisi Hüseyn Əhmədov işdən çıxarılmış hər iki şəxslə bağlı AzadlıqRadiosuna bunu dedi:* «Asif Lətifov rəsmi müraciət edib və yaxın günlərdə əmrin surəti ona veriləcək. Ancaq Seymur Əlicanov uzun müddətdir işdən çıxarılmasına baxmayaraq bizə əmrin surətini almaq üçün rəsmi müraciət etməyib».

XDMİ xüsusi təyinatlı «Beta» dəstəsinin komandiri Fikrət Rzayevdən də münasibət öyrənməyə çalışdıq:

**- Fikrət müəllim, keçmiş əməkdaşınız Asif Lətifovun işdən çıxarılmasının səbəblərini bilmək istəyirdik...**



Seymur Əlicanov

- Onu işdən mən çıxartmamışam ki...

**- O deyir sizin rəhbərlik etdiyiniz dəstədə pul yığıldığına və başqa əməllərə etiraz etdiyinə görə işdən çıxarılıb.**

- Bilmirəm, nədir -nə deyil, mənlik deyil.

Fikrət Rzayev sonuncu cümləsini bitirib telefonunu qapatdı. Keçmiş əməkdaşlar isə deyirlər ki, xüsusi idarədə müxtəlif bəhanələrlə işdən çıxarılanların sayı çoxdur. Xüsusi Dövlət Mühafizə Xidmətində yerlibazlıq artdıqca prezidentin peşəkar mühafizəçiləri qeyri-peşəkarlarla əvəz olunur.

***Esmira Cavadova***

**"Qaynar Xətt"** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.

E-mail: esmer_alda@mail.ru



# Avtomobil «rastomoşkasında» nə dəyişib?




Dövlət Gömrük Komitəsinin Avtonəqliyyat Gömrük İdarəsi

**OKTYABRIN 21-dən FƏALİYYƏT GÖSTƏRƏN İDARƏ**

Qaradağ rayonunun Lökbatan qəsəbəsində - Sədərək ticarət mərkəzinin yaxınlığında yerləşən idarə genişliyinə, səliqə-sahmanına, müasir quruluşlu inzibati binasına, əraziyə gələn nəqliyyat vasitələrinin rahat hərəkət etməsinə görə, vaxtilə Binəqədidə yerləşən idarədən xeyli fərqlənir. Yeni Gömrük İdarəsi 2011-ci ilin oktyabrında istifadəyə verilib. Bununla da ölkəyə gətirilən avtomobillərin «bir pəncərə» prinsipi ilə rəsmiləşdirilməsinə start verilib. Yəni indi yeni ünvanda xaricdən gətirilən avtomobilin həm gömrük qeydiyyatı həll edilir, həm də dövlət nömrə nişanı verilir. Amma gətirdiyi avtomobili gömrük qeydiyyatından keçirənlər çöldəki görüntü ilə daxildə gedən proseslərin bir-birinə heç cür uyğun gəlmədiyini dedilər: «Heç nə də yaxşı deyil. Kim deyir ki, yaxşıdır. Hamı bunu bilir də...»

«Rusiya ilə müqayisə edəndə burda vəziyyət pisdir. İçəridə nə bir lövhə var ki, hansı xidmətin neçəyə başa gəldiyi yazılsın. Hərə ağlına gələn qiyməti deyir ki, bunu verməlisən». Bakı sakini Mahmud Əliyevlə Dövlət Gömrük Komitəsinin Lökbatanda bir ay əvvəl fəaliyyətə başlayan Avtonəqliyyat Gömrük İdarəsinin qarşısında görüşdüm. Üzləşdiyi vəziyyətdən heç razı deyildi. Tez-tez Rusiyadakı vəziyyəti nümunə gətirirdi. Həm də etiraf edirdi ki, avtomobilini qeydiyyatdan keçirmədiyi üçün çox şeyi danışa bilmir.

Avtomobil sahibi Dadaş Məmmədova görə, ünvan dəyişsə də, köhnə qaydalar dəyişməyib, əksinə, bir qədər də pisləşib: «Bu milləti süründürürlər. Sürünmək olar, ilan da sürünür, bunun nəyi pisdir ki, amma bizim həm də başımızdan basırlar».

**TERMİNAL XİDMƏTİ ÜÇÜN 50 MANAT**

Deyinə-deyinə gömrük idarəsindən çıxan Səməd Səfərov isə terminal xidməti üçün istənilən 50 manata görə evə qayıtdığını deyirdi. Onun sözlərinə görə, əlavə ödədikləri pullar üçün onlara qəbz də verilmir. Yeni fəaliyyətə başlayan Avtonəqliyyat Gömrük İdarəsinə gələnlərin narazılığından yaxınlıqda taksi xidməti göstərən sürücülər daha çox məlumatlı görünürdülər: «Aparıb-gətirdiyimiz müştərilərin hamısı narazılıq edir. Deyirlər Gürcüstanda 50 manat verib, tez-bazar nömrə alıb gəlirik Azərbaycana, burda səhər tezdən axşama qədər gözləyirik. Bundan başqa, avtomobil gətirənlər qiymətlərdən daha çox gileylidirlər».

**CİDDİ MÜHAFİZƏ OLUNAN İDARƏ**

Əvvəlcə bir neçə sürücüyə qoşulub idarənin həyətinə girsəm də, bir neçə dəqiqə sonra mühafizə xidmətinin əməkdaşları məni ərazidən çıxardı. Rəhbərliyə müraciətim isə cavabsız qaldı. Ərazi ciddi mühafizə olunur. Avtomobil sahiblərindən başqa Gömrük İdarəsinin ərazisinə heç kim buraxılmır. İçəri daxil olan bütün adamların sənədləri avtomobilin sənədləri ilə birgə diqqətlə yoxlanılır. Hətta idarənin hasarı dibində duran adamların içəridəki şəxslərlə danışmasına belə imkan verilmir. Avtomobil sahiblərinin iradlarına idarədən münasibət öyrənmək istədik. Bizə şərait yaradılacağına söz versələr də, sonradan bundan imtina olundu və bizi təkrar ərazidən uzaqlaşdırdılar. Hətta avtomobilini qeydiyyatdan keçirənlərlə çöldə etdiyimiz söhbətə belə imkan verməyib, ərazidən uzaqlaşmamızı istədilər.

Bir müddət əvvəl isə Bakı Baş Gömrük İdarəsinin Sulutəpə qəsəbəsindəki Yasamal və Binəqədi gömrük postunda avtomobil sahiblərinin onlardan rüşvət alınması ilə bağlı dediklərini təkzib etmişdilər. Postdan bildirmişdilər ki, bütün rüsumlar Gömrük Komitəsinin saytında göstərilən kimi hesablanır.

***Maarif Çingizoğlu***

# Azərbaycanda illik inflyasiya 8.3%-ə düşüb



**Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda istehlak mallarının qiymətləri və xidmət tarifləri əvvəlki ilin analoji dövrünə nisbətən 8.3% bahalaşıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, hesabat dövründə ərzaq məhsulları 11.1%, qeyri-ərzaq məhsulları 2.7%, xidmət tarifləri isə 4.6% bahalaşıb. Oktyabr ayında ölkədə istehlak mallarının qiymətləri və xidmət tarifləri əvvəlki ayın səviyyəsində qalıb (1.1%). Yanvar-sentyabr aylarında inflyasiyanın səviyyəsi 8.4% olub.**

Beynəlxalq Valyuta Fondu 2011-ci ildə Azərbaycanda inflyasiyanı 10.3%, Asiya İnkişaf Bankı 7.5%, Avropa Yenidənqurma və İnkişaf Bankı 9.1%, Azərbaycan hökuməti isə 5% səviyyəsində proqnozlaşdırır.




**Dəyərli oxucular!**
AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını **AzadliqRadiosu.az** saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.

# Рафик Алиев: «На меня не может повлиять и президент...»



Рафик Алиев

**Несколько дней назад снятый с должности завкафедры в Нефтяной Академии в Баку ученый Рафик Алиев побеседовал с журналистами газет "Азадлыг" и "Ени Мусават". Он говорит, что "все великие открытия выглядят сложными, хотя достаточно просты, если суметь популяризовать их", и верит в миропорядок на основании нечеткой логики известного ученого Лютфи Заде.**

- В мире должна быть толерантность. В основе всех недостатков и войн стоит отсутствие толерантности. Потому что Каддафи и Мубараки не могут мыслить нечеткой логикой. Они не считают нас не только людьми, но даже и муравьями не считают. Для них существует только аристотелевская логика – или есть человек, или его нет. Чуждые им люди, интеллектуалы для них просто не существуют. Поэтому мир не может дальше жить таким образом.

Он говорит, что "никогда не оказывал протекции ни одному из студентов":

- Как я могу сказать, поручить кому-то написать высшую оценку какому-то студенту, если завтра этот преподаватель может попросить меня об ответной услуге? Это нарушит мое понимание миропорядка, его гармонию. Кто бы ни был, хоть президент, хоть кто-то другой, они не могут повлиять на меня. И какой студент посмеет предложить мне деньги?

*- Каким должен быть интеллигент?*

- У интеллигента не должно быть идеологических обязательств. Он не должен зависеть от кого-то, от чьего-то кармана. Он должен предпочитать национальные, народные интересы личным хотя бы ненамного. Если он выражает мнение народа, не должен думать о том, чем это может кончиться. Если он интеллигент, не должен бояться камней, которые бросят в него.

*- На каком языке вы думаете?*

- На научные темы думаю на английском, на публицистические и бытовые – на азербайджанском.

*- Вы встречались с Эльчибеем? Что вы думаете про него?*

- Мы встретились с ним за месяц до того, как он стал президентом. На встрече участвовали Эльдар Салаев, Азад Мирзаджанзаде, Гасан Турабов и я. Говорили обо всем – о литературе, искусстве, науке. Я высоко ценю Эльчибея. В последний раз встретился с ним в 1997 или 1998 году. Одним из его достоинств, кстати, было стремление встречаться с интеллигенцией. У этих такого нет.

Рафик Алиев считает, что теорией нечеткой логики Лютфи Заде можно многое сделать для Карабахского урегулирования:

- Думаю, что для освобождения Карабаха в первую очередь должны быть созданы институты. Должны быть изучены интересы США, России, Ирана и других стран. Карабах, в первую очередь, необходимо вернуть [Азербайджану - прим.ред.] в "мозговой лаборатории", за столом.

***Фуад Сеидахмедли***

# По нам не стреляли из «калашниковых»...

*Я шел по Коммунистической улице, - которая ныне называется Истиглал, - когда увидел группу молодежи числом несколько сотен, которые шли по проезжей части и несли плакаты и транспаранты. Флагов не было, насколько я помню. Ни красного флага с узкой синей полосой понизу – забытого ныне флага Азербайджанской ССР, ни нынешнего трехцветного с полумесяцем и звездой. Неаакуратные, даже корявые буквы надписей на самодельных плакатах и транспарантах, где было написано «Карабах – часть Азербайджана!», «Карабах – наш!», «Руки прочь от Топхана!» и так далее, свидетельствовали о самодеятельности происходящего. На плановых, организованных «сверху» советских демонстрациях и митингах, которые бывали достаточно часто, и на которые мы ходили по обязаловке, качество надписей, шрифтов и рисунков всегда было отменным.*

Это было настолько дико, что я не поверил своим глазам и остановился. Демонстрация прошла мимо меня, и я, чтобы не отстать, пошел за ней. За ней, но отдельно. Они – по проезжей части улицы, я – по тротуару. Первым движение души было присоединиться к ним. Но я решил не делать этого, поостерегся. Я работал тогда переводчиком, - с перспективой стать литсотрудником и даже редактором отдела, - в перестроечном журнале «Гянджлик»-«Молодежь». Но этот, пусть и перестроечный, журнал был органом ЦК ЛКСМ Азербайджана – Центркома Ленинского коммунистического союза молодежи, а за такое легко было потерять работу.



17 ноября - 23 года назад

На этом митинге, который собрал от трех до десяти тысяч, я уже был в качестве полноправного участника, хотя и прикрывался журналистским удостоверением – на всякий пожарный. Но никто ничего не спросил, не требовал разойтись, по нам не стреляли из «калашниковых»...

**Продолжение на сайте Радио-Азадлыг - radioazadlyg.org**

***Чингиз Султансой***

**На сайте radioazadlyg.org:**

**• Грузия пустила "оккупантов" в ВТО**
**• Тельман Дяниз: Битва за Нью-Йорк**
**• Взаимное недоверие и гнев в Европе**
**• Amnesty International: В Азербайджане усиливаются репрессии**
**• The Economist: "Опьяненный" нефтью маленький Азербайджан**

# Avropa Birliyinin Bakıya gələn komissarı: «İnsan hüquqları müstəsna əhəmiyyət daşıyır»



Ketrin Eşton

**Noyabrın 15-də Avropa Birliyinin təhlükəsizlik və xarici siyasət məsələləri üzrə ali komissarı Ketrin Eşton Azərbaycana gəlib. Xanım Ketrin Eşton xarici işlər naziri Elmar Məmmədyarovla 1 saatlıq görüşdən sonra jurnalistlərin qarşısına çıxıb.**

**«İNKİŞAF İNSANI VALEH EDİR»**

*Avropa Birliyi komissarı əvvəlcə Azərbaycanda müşahidə etdiyi inkişafdan heyrətləndiyini dilə gətirib:* «Hava limanından başlayaraq bütün şəhər üzrə genişmiqyaslı inkişaf insanı valeh edir. Bayaq nazirə «Eurovision» mahnı müsabiqəsi ilə bağlı da öz təbriklərimi çatdırdım. Eyni zamanda mən əminəm ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasında çox nüfuzlu və önəmli bir üzvə çevriləcək».

*Xanım Eşton əlavə edib ki, Azərbaycan AB üçün enerji məsələləri baxımından çox mühüm bir tərəfdaşdır:* «Azərbaycanla Avropa arasında olan münasibətlərin dərinləşdirilməsi müstəsna əhəmiyyətə malikdir. Cənab nazirə də qeyd etdim ki, bizim tələblərimiz də maraqlarımıza uyğunlaşdırılmalıdır. Azərbaycan regionda, indi isə Təhlükəsizlik Şurasında getdikcə nüfuzunu artıran bir dövlətdir».

**İNSAN HAQLARININ MÜSTƏSNA ƏHƏMİYYƏTİ**

*Avropa Birliyi təmsilçisinin Bakıya səfərindən bir gün öncə Müsavat Gənclər Təşkilatı ona müraciət yollayaraq, xanım Eştonu Azərbaycandakı siyasi məhbuslarla görüşməyə çağırırdı. Mətbuat konfransında bu müraciətlə bağlı suala cavab verən Ketrin Eşton ondan xəbərsiz olduğunu açıqladı. Qeyd etdi ki, bütün fəaliyyəti boyu insan hüquqları mövzusuna xüsusi önəm verib:* «İnsan hüquqları bizim üçün müstəsna əhəmiyyət daşıyıb. Şərq Tərəfdaşlığı təşəbbüsünə daxil olan ölkələrə gəldikdə isə, bu, mühüm əhəmiyyət daşıyır. Cənab nazir həm şəxsən mənim, həm də Avropa Birliyinin bu barədə mövqeyindən çox gözəl xəbərdardır».

K.Eşton Dağlıq Qarabağ probleminin həlli barədə də danışıb. O, qeyd edib ki, Avropa Birliyi Minsk Qrupunun fəaliyyətini dəstəkləyir.

***Durna Səfərli***

# Ucarda hüquqşünası polisdə saxlayırlar

**Göyçay rayon sakini, Ucar rayonunda baş verən hadisələr barədə mətbuata məlumatlar verən hüquqşünas Taleh Xasməmmədov həbs edilib. Bu barədə AzadlıqRadiosuna hüquqşünasın anası Gülbuta Xasməmmədova məlumat verib. Gülbuta Xasməmmədova deyir ki, oğlunu noyabrın 12-də axşam saatlarında Ucar Rayon Polis Şöbəsinə çağırıblar. O gündən bəri ailə üzvləri Taleh Xasməmmədovdan xəbər tuta bilmir: "İcazəsiz olaraq evində axtarışlar aparıblar. Talehə aid olan kompyuterlər, əlyazmaların hamısını götürüb apardılar. 40 nəfər polisi tökmüşdülər evə, elə bil terror idi".**

Gülbuta Xasməmmədova deyir ki, oğlunu polisə müqavimətdə günahlandırırlar: "Heç uşağımı mənə göstərmirlər. Bilmirəm, var, yoxdur. Dedim ki, qoy öz xəttilə kağıza yazsın ki, burdayam, onu da eləmədilər. Sanksiyasız orda saxlayırlar".

Ucar Rayon Polis Şöbəsinin növbətçi AzadlıqRadiosuna bildirib ki, istintaq getdiyinə görə, heç bir məlumat verə bilməzlər. Məsələ ilə bağlı Daxili İşlər Nazirliyindən məlumat almaq mümkün olmayıb.



**Dmitri Medvedev Alexsandr Lukaşenko ilə görüşür. 19 mart 2009**

# Putinin Avrasiya Birliyi razılaşması imzalandı

*Rusiya, Qazaxıstan və Belarus prezidentləri noyabrın 18-də Avrasiya Birliyi ideyası ilə bağlı ilkin sənədləri imzalayıblar. Qazaxıstan və Belarus prezidentləri bu gün Moskvada rusiyalı həmkarları ilə görüşüblər. Kremlin məlumatına görə, prezidentlər ölkələri arasında gələcək iqtisadi inteqrasiyaya dair bəyannamə imzalayıblar. Onların arasında artıq gömrük birliyi barədə razılaşma var. Prezidentlər Avrasiya İqtisadi Komissiyasının yaradılması haqqında razılaşma imzalayıblar.*

Avropa Birliyinə bənzər bir qurum kimi Avrasiya Birliyi yaradılması ideyasını Rusiyanın Baş naziri Vladimir Putin irəli sürüb. Əvvəlcə həmin Birlik haqqında sənədləri Rusiya, Qazaxıstan və Belarus imzalayacaq. Amma bu birlik başqa keçmiş sovet respublikalarına da açıq olacaq. Tənqidçilər hesab edirlər ki, Putin əslində başqa adla Sovet İttifaqını bərpa etməyə çalışır.

*Amma Qazaxıstanın prezidenti Nursultan Nazarbayev bu gün imzalanma mərasimindən sonra keçirilən mətbuat konfransında bu cür iddiaların əsassız olduğunu deyib:* "Sovet İttifaqının bərpası haqqında necə danışmaq olar? Sovet İttifaqı sərt idarəetmə sistemi əsasında işləyirdi. İstehsal total şəkildə yalnız dövlətin nəzarətində idi. Yeganə kommunist ideologiyası Kommunist Partiyasının sütununu təşkil edirdi. İndi kimin ağlına gələ bilər ki, Qosplan, ya da Qossnab kimi idarələri bərpa etmək olar?Adamlara başa salmaq lazımdır ki, bu cür iddialar bu regionda heç bir inteqrasiya görmək istəməyən rəqiblərimiz, ya da düşmənlərimiz tərəfindən ortaya atılan əsassız iddialardır".

Avrasiya İqtisadi Komissiyasına Rusiyanın sənaye naziri Viktor Xristienko rəhbərlik edəcək. Avrasiya İqtisadi Birliyinin mərkəzi ofisi də Moskvada yerləşəcək.

# Pulsuz dərmanlar apteklərə necə çıxır?



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 2008-ci il araşdırmasına görə, Azərbaycan mədə xərçənginə görə dünyada 19-cu yeri tutur. ÜST-ün son hesabatına görə, Ermənistan bu xəstəlik üzrə 28-ci, Gürcüstan isə 49-cu yerdədir. Azərbaycan Dövlət Statistika Komitəsindən AzadlıqRadiosuna verilən məlumata görə, 2010-cu ildə xərçəng 6500-dən çox adamın ölümünə səbəb olub. Statistikaya görə, Azərbaycanda əhali arasında ölümün əsas səbəbi qan dövranı sistemi xəstəlikləridir, ondan sonra xərçəng gəlir.**

Ölkədə 2006-2010-cu illər üçün "Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramı" təsdiqlənib. O cümlədən onkoloji xəstələrin pulsuz dərmanla təminatı haqqında ayrıca qanun qəbul edilib. Bu qanunla onkoloji xəstələrin cərrahiyyə əməliyyatından tutmuş polikimyəvi terapiyasına qədər müalicəsi dövlət hesabınadır. Bura şüa müalicəsi almaq, o cümlədən ağrıkəsici vasitə kimi narkotik vasitələrdən pulsuz istifadə də daxildir.

2009-cu ildən indiyə kimi dövlət büdcəsindən onkoloji xəstələrin dərmanı üçün 35 milyon manat ayrılıb. Əgər 2009-cu ildə bu məqsədlə 10 milyon manat ayrılıbsa, 2011-ci ildə bu vəsait 14 milyon manatı ötüb. Rəqəmlərin dili ilə desək, hər bir onkoloji xəstəyə orta hesabla ildə 500 manatlıq dava-dərman düşür. Rəsmi məlumata görə, 2010-cu ildə ölkədə 28 min xəstə qeydiyyatdadır.

## DÖVLƏTİN PULUNA VERİLƏN DƏRMAN TƏSİRSİZ OLUB?

... Evinə qonaq getdiyim xəstənin qapısını ev xalatında, başı çalmalı (sonradan bildim ki, xəstəlikdən saçı tökülüb) Sevda Əliyeva açdı. 48 yaşlı Sevda Əliyeva süd vəzinin xərçəngi diaqnozu ilə iki il əvvəl əməliyyat olunub. Deyir ki, ona 1500 manata başa gələn əməliyyatdan bir müddət sonra kimya terapiyasına ehtiyac yaranıb. Tibb Universitetinin Onkologiya Klinikasında ona iki kimyəvi dərman vurulub:

- Bunu pulsuz verdilər, amma ona qatılan digər dərmanları aptekdən özümüz aldıq. Elə də baha deyildi. Amma həmin müalicə mənə təsir eləmədi. Orda başqa həkimin yanına getdim. Mənə dedi ki, müalicə edərəm, amma gərək dərmanı özün alasan, bizə bunu vermirlər. Dərmanın adı "Taksol" idi, 6 seans aldım. Hər dəfə də 300 manata. Dövlətin verdiyi dərman mənə təsir eləmədi, amma "taksol"un xeyrini gördüm. Sevda xanım bu dərmanı "qara bazar"dan aldığını deyir.

Tibb Universitetinin Onkologiya Klinikasında kimyəvi terapiya zamanı Sevda xanıma alması məsləhət görülən "Taksol" dərmanı Səhiyyə Nazirliyinin xəstələrə pulsuz verilməli olan dərmanlar siyahısında "Paclitaxel" adı altında göstərilir.



Sevda Əliyeva

## ONKOLOJİ XƏSTƏLƏRİN DƏRMANI NİYƏ "ƏL ALTINDAN" SATILIR?

Bakı sakini Samirə Abbasova (ad şərtidir) deyir ki, onkoloji xəstələrin pulsuz dərman təminatı haqqında o da eşidib. Bunun üçün İranda onkoloji xəstəlikdən əməliyyat olunmuş bacısını Tibb Universitetinin Onkoloji Klinikasına gətirib.

- Bacım 20 gündən bir müalicə götürməlidir. Hər dəfəsi bizə 1000 manata başa gəlir. İlk iki kimyanı pulsuz elədilər, amma sonra dedilər ki, dərmanı özün al gətir.

*- Bəs həkimlər deyən dərmanı haradan aldınız?*

- Həkim yazdı, nişan verdi, biz də getdik tapdıq. Nəsimi bazarının yanında. Yasamalda da apteklər var, onlara yaxınlaşırsan.

Onkoloji xəstələrdən biri bizə bu yaxınlarda "əl altından" aldığı iki dərmanın qutusunu da təqdim etdi. Bunlardan biri Səhiyyə Nazirliyinin pulsuz dərman siyahısında olan"Carborlatino" (150 mg) preparatı idi. Deyilənə görə, "Qara bazar"da onun 150 mq-nın qiyməti 50 manatadır.

## DƏRMAN AL-VERÇİSİ

Bəzi onkoloji xəstələrin dərman üçün müraciət etdikləri Cavid adlı adamla biz də əlaqə yaratdıq. Ona xəstəmiz üçün bahalı dərmanlardan sayılan "Paclitakcel" adlı dərmanı axtardığımızı söylədik. Əslində Səhiyyə Nazirliyinin təsdiq etdiyi siyahıya görə həmin dərman dövlət büdcəsi hesabına xəstələrə pulsuz verilməlidir. Amma xəstələr onu pulsuz ala bilmədiklərini deyirlər. "Qara bazar"ın təmsilçisi kimi təqdim edilən Cavidlə söhbətimiz isə bu şəkildə oldu:

*- Neçə milliqram? 200, 300 milliqram?..*

- 200. Siz bunu nə vaxta təşkil edə bilərsiniz?

*- Sabaha.*

- Qiyməti neçəyə olacaq?

*- 260 manata.*

- Bu son qiymətdir? Aşağı yeri var?

*- Yox, mən sizə ən son qiyməti deyirəm. Bizə heç nə qalmır. Firmalardan barter eləyirəm. Onlara mal verirəm, pulun əvəzinə bu dərmanları verirlər. Özü də bunu reseptlə satıram. Sizin reseptiniz var?*

- Var.

*- Həkiminiz kimdi?*

- Həkimi tanımıram, yaxın adamdı, xahiş ediblər.

*- Həkimin adını desəydiniz..., çünki mən bir həkimin xəstələri üçün tapıram bu dərmanı. Az miqdarda olur.*

- Niyə az olur? İndi biz çətinliklə tapacağıq bu dərmanı?

*- Əslində bu dərmanı pulsuz verməlidirlər. İndi biz də çətinliklə tapırıq, ordan-burdan xahiş edirik, "əl altdan" tapırıq.*

**Yazının davamını AzadliqRadiosu.az saytından oxuyun.**

***Səadət Akifqızı***

# Akademik canlı efirdə ağladı...



Cəlal Allahverdiyev

**AzadlıqRadiosunun «İşdən sonra» proqramında BDU-nun müəllimlərinin Ziyalılıar Forumuna qarşı bəyənatından danışan, bəyanatda imzası olan akademik Cəlal Allahverdiyev canlı efirdə göz yaşlarını saxlaya bilməyib. Cəlal Allahverdiyev deyib ki, onu bu bəyanatı imzalamaq üçün çağıranda o bildirib ki, o bəyanatda bəzi məqamlarla razılaşmır. «Ziyalılar Forumu haqda deyilən mənfi sözlərin çoxu ilə mən razı deyiləm. Orada yaxşı, layiqli adamlar var. Mənim əsas fikrim o idi ki, Rafiq Əliyevi düzgün çıxarmayıblar. Rafiq Əliyev ADNA-nın ən yaxşı kafedra müdirlərindən biridir».**

Akademik deyir ki, o, Rafiq Əliyevi kafedra müdiri olmağa tam layiq hesab edir. Və bu bəyanatı da Rafiq Əliyevin müdafiəsi üçün imzalayıb. Akademik də hesab edir ki, Ziyalılar Forumunun tənqidlərində qeyri-adi heç nə yoxdu.

**«BİZİM BU SAAT ÖLKƏMİZDƏ TƏNQİD OLUNMALI ÇOX ŞEYLƏR VAR VƏ BU, DÖVLƏTİN VƏ XALQIN XEYRİNƏDİR»**

Cəlal Allahverdiyev deyir ki, Ziyalılar Forumundakı adamların çoxunu tanıyır: «Onlar düzgün adamlardır. Ola bilməz ki, onlar nadürüst işlə məşğul olsunlar».

Akademik deyir ki, o, çox illər Azərbaycanda yaşamayıb və Azərbaycanın həmişə müstəqil olmasını arzulayıb: «Mən çox sevinirəm ki, Azərbaycan müstəqildir. Amma mən Azərbaycanın rüşvətxorluq yuvası olmasını istəmirəm. Mən bu dövləti çox sevirəm. Mən bu xalqı çox sevirəm. Mən elə bilirəm ki, bu, böyük bir xoşbəxtlikdir ki, bizim bu xalqımız öz dövlətini qurub. Bu, böyük xoşbəxtlikdir. Bunu qorumaq lazımdır. Amma bunu qorumaq adı ilə bunu soymaq düzgün deyil. Mən bununla razı deyiləm».

O deyib ki, cəmiyyətdə hər şeyin gözəl olması üçün hər bir adam düz adam olmalıdır, onun məqsədi hərəkəti ilə uyğun gəlsin. Ancaq insan hazırda ətrafda baş verənlərə baxanda narahat olmaya bilmir: «Mən ətrafıma baxanda narahat olmaya bilmirəm. Təhsildən də narahatam, səhiyyədən də, başqa şeylərdən də... Təəssüf ki, mənim əlimdən heç bir şey gəlmir».

**Verilişi tam olaraq AzadliqRadiosu.az saytından dinləmək olar.**

***Xədicə İsmayılova, Kamran Mahmudov***

# Molla radioya nədən şikayət etdi?..

**«NƏZİR-NİYAZLAR MƏNİMSƏNİLİR»**

Zərdabın Yuxarı Seyidlər kənd sakini Hacıbaba Məmmədov AzadlıqRadiosunun «Qaynar xətt»inə qonşu Xınaxlı kəndindəki «Veys əl-Qarani» dini icmasının sədri Məzahir Seyidovdan şikayət edib. Deyir ki, Məzahir Səmədov «Veys əl-Qarani» ziyarətgahına daxil olan nəzir-niyazları mənimsəyir:

- Ora gəlir mənbəyidir. İcmanın nizamnaməsinə görə, ora gələn pullarla körpələr, əlillər, qocalar evlərinə yardımlar olunmalıdır. Ancaq o, həmin pulları mənimsəyir.

**«İMKAN VERMİR BİZ DƏ ÇÖRƏKPULU QAZANAQ»**

Hacıbaba Məmmədovun deməsinə görə, Məzahir Səmədov başqalarının ziyarətgahda çörəkpulu qazanmasına imkan vermir. Deyir, icma sədri ziyarətgahı şəxsi evinə çevirib – ziyarətgahda bir özüdür, bir də həyat yoldaşı: «Mən də «Quran» əhliyəm, imkan vermir ki, ordan mənə də bir az çörəkpulu, dolanışıq olsun. 3 uşaq atasıyam, ora gəlir mənbəyidir, istəyirəm mən də ordan dolanam. Vaxtilə mənim atam, babam da o ziyarətgahda oturub».

Dini icmanın sədri Məzahir Səmədov isə deyir ki, Hacıbaba Məmmədov özü onunla yola getmir. Səbəb də odur ki, Hacıbaba Məmmədov dini icmaya rəhbərlik etmək istəyir: "Onun qardaşı guya Ağdaşda şeyxin səlahiyyətli nümayəndəsidir, o da qardaşının adından istifadə edir, 2 ildir ki, ziyarətgahda qarışıqlıq salır».

**«ƏSTƏĞFÜRULLAH...»**

*- O deyir ki, Siz ziyarətgaha gələn nəzir-niyazları mənimsəyirsiniz...*

- Əstəğfürullah. Burda kassa var, o kassa təftiş komissiyasının üzvlərinin iştirakı ilə açılır. Ziyarətgaha, işığa, yola xərclənir, məscid tikilir, ona xərclənir. Qeydiyyatdan keçmiş dini icmadır. İndi istəyirlər məni burdan aralasınlar, özlərini bura salsınlar. Onların məqsədi ancaq budur».




*Hacıbaba Məmmədov isə deyir ki, ziyarətgaha qədəm basan kimi dini icma sədri onu həyətdəki dilənçilərə döydürür:* «Döyülməyimlə bağlı Ağdaş polisinə də şikayət yazdım. Ancaq Məzahir Səmədov müstəntiqlə danışıb işi örtbasdır etdirdi. Müstəntiq qərar çıxartdı ki, cinayət işi başlanması rədd edilsin».

Dini icma sədri isə deyir mən kiməm ki, polisə göstəriş verim. Hacıbaba Məmmədov polisə şikayət etsə də, onun döyülməsi təsdiqini tapmayıb, şikayətə xitam verilib. Hacıbaba Məmmədov deyir ki, başına gələnlərdən baş prokurorluğa da yazıb. İndi baş prokurorluqdan şikayətinə cavab gözləyir.

***Esmira Cavadova***




Azərbaycanın bölgələrində baş verənlər haqda həftəlik proqram. **AzadlıqRadiosu** bölgə müxbirlərinin hazırladığı reportajlarda əyalətlərin nəbzini hiss etmək üçün hər həftənin bazar ertəsi, **saat 20.35**-də efirə qoşulun. Veilişin təkrarı həftəboyu **AzadlıqRadiosu**nun efirində səslənir.

# Məhbusların vəziyyəti necədir?

**Müxalifətin İctimai Palatasının 2 aprel aksiyasında saxlanmış 14 müxalifətçi hazırda həbsdədir. Elələri var ki, ailəsinin dolanışığı, güzəranı ondan asılı idi. Azadlıqdan məhrum olunandan sonra ailəsi də gəlirdən məhrum olub. AXCP-nin 2 aprel mitinqi ərəfəsində həbs olunan üzvü Şahin Həsənlinin ailəsi kimi...**

**HƏR DƏFƏ 80-100 MANAT LAZIMDIR**

*Həyat yoldaşı Zülfiyyə Həsənli deyir ki, 3 azyaşlı uşağına baxdığı üçün işləmək imkanı yoxdur. Həbsxanaya həyat yoldaşına baş çəkmək üçünsə hər dəfə 80-100 manat pula ehtiyacı yaranır:* «Hələ ki, yoldaşlar, qohumlar, tanışlar kömək edir birtəhər. Amma getdikcə o kömək də azalır. Elə vaxt olur ki, Şahinin yanına gedə bilmirik. Gedəndə bazarlıq etmək, ona ərzaq aparmaq, nə bilim, pul vermək lazımdır. Özü mühasib idi, o dərəcədə də qazanmırdı. İndi o gəlir də kəsilib. Gəliri olmayan, işləyəni olmayan ailə necə dolanar?».

**«HAMI GİZLİ KÖMƏK ETMƏK İSTƏYİR»**

Məhbus hüquq müdafiəçisi Vidadi İsgəndərli də ailəsinin yeganə işləyən üzvü olub. İndi həyat yoldaşı 2 qızı ilə birlikdə qohum-qonşunun ümidinə qalıb.


Vidadi İsgəndərli

*Qardaşı Oqtay İsgəndərli deyir ki, rayonlarında siyasi məhbuslara yardım etmək istəyənlər çoxdur, amma gizlicə:* «İnsanlarda bir xof var ki, kömək edənləri axtarıb taparlar, təzyiqlər olar. Amma gizli surətdə hamı kömək etmək istəyir».

**CABBARIN AİLƏSİ...**


Solidə Hacıyeva

Gənc fəal, Harvard Universitetinin məzunu Bəxtiyar Hacıyev isə ailə üzvləri və dostları ilə həftədə bir dəfə görüşür. Anası Solidə Hacıyeva deyir ki, onu daha çox narahat edən digər gənc fəal, narkotik saxlama ittihamıyla həbs olunmuş Cabbar Savalanın ailəsinin maddi durumudur:

**«1000 MANATDAN ÇOX PUL TOPLANMAYIB»**

İctimai Palatanın təşəbbüsü ilə bir neçə ay əvvəl Məhbuslara Yardım Fondu yaradılıb. İctimai Palatanın üzvü Vidadi Mirkamal AzadlıqRadiosuna deyir ki, Fondun «AccessBank»dakı hesabına az da olsa pul daxil olur. Vəkil Vidadi Mirkamal deyir ki, bank hesabına çox böyük ehtiyac var. Çünki Azərbaycan kimi ölkədə bəxtinə müxalifətçilik düşmüş insanların taleyi kasıblıqdır. O, əlavə edir ki, hesaba toplanan məbləğ ayrı-ayrı vaxtlarda müxtəlif olur. Deyir ki, orada ən çox vəsait heç 1000 manata çatmır.

***Durna Səfərli***

# Sakinlər qaz tələbi ilə yolu bağladılar

*Noyabrın 18-də Salyan rayonunun Qarabağlı kənd sakinləri bir ildir kəndə qaz verilməməsinə etiraz olaraq Salyan-Şirvan yolunu bağlayıblar. Polis yolu açmaq üçün kənd sakinlərinə zor tətbiq edib. Kənd sakini Söhbət Kərimov:* «Polis qadınları itələyib az qala su kanalına salırdı. Camaatı döyüb dağıtdılar. Heç söz verən də olmadı ki, yolu açın, kəndə qaz veriləcək. Qaz heç yoxdursa, biz buna anlayışla yanaşarıq. Televizor səhərdən axşamacan bağırır ki, Azərbaycan filan-filan ölkələrə qaz verir. Varsa, sən birinci qazı mənə ver, sonra başqalarına sat da».

Sakinlər deyirlər ki, kəndin ərazisində neft yatağı var. Son vaxtlaradək yerli əhalinin qaz ehtiyacları hasilat quyularından verilən səmt qazı hesabına ödənilirdi. Bir ilə yaxındır əhaliyə qaz verilməsi dayandırılıb. Halbuki kənddə yaşayan vəzifəli və imkanlı adamların evlərinə, sahibkarların obyektlərinə ordan yenə də qaz ötürülür.


Etiraz aksiyası, 18 noyabr 2011

# Lukaşenkonu Beynəlxalq Cinayət Məhkəməsinə vermək istəyirlər

**Belarusda prezident seçkilərində namizəd olmuş və bundan sonra həbsdə yatan Ales Mikhalevich azadlığa çıxandan sonra ilk dəfədir ki, ABŞ-a gəlib.**

Amerika Konqresinin Helsinki Komissiyasında dinləmələr zamanı Mikhalevich deyib ki, həbsdə ona işğəncələr verilirdi. Bu çıxışdan sonra Helsinki Komissiyasının sədri, Nümayəndələr Palatasının üzvü Chris Smith Belarus prezidenti Lukaşenkonu Beynəlxalq Cinayət Məhkəməsinə vermək üçün səylərə başlayacağına söz verib. Smith deyib ki, Obama hökumətinə təzyiq edəcək ki, Obama hökuməti Lukaşenkonu məhkəməyə cəlb etdirmək istiqamətində addımlar atsın. Smith bildirib ki, Amerika hökumətinin və eləcə də BMT-nin Təhlükəsizlik Şurasının üzvlərinə şəxsən məktub göndərəcək ki, Lukaşenkonun beynəlxalq məhkəməyə verilməsinə yardım etsinlər.

Komissiyadakı dinləmələrdən sonra Chris Smith AzadlıqRadiosuna deyib ki, Lukaşenko kimi 17 il vəhşilik edənin nə vaxtsa zamanı gəlməlidir. Smith deyir: "Hərçənd Belarus Beynəlxalq Cinayət Məhkəməsinə imza atmayıb, eləcə də ABŞ imza atanlar arasında deyil, ancaq biz bunu Sudan prezidenti Omar al Bashirlə edə bildik. Bu, xeyli vaxt aparacaq, ancaq biz buna başlamalıyıq. Biz səy göstərməliyik ki, BMT-nin Təhlükəsizlik Şurası prosesə başlasın. Mən əminəm ki, Rusiya və Çin müqavimət göstərəcək, ancaq biz döyüşməliyik. Çünki bu adam öz xalqına qarşı gündəlik vəhşilik edir".

Konqresin üzvü, Helsinki Komissiyasının sədri Smith hesab edir ki, Lukaşenkonu ona görə məhkəməyə cəlb etmək lazımdır ki, insan haqlarının unudulmadığını hamı görsün. Smith deyir ki, Lukaşenkonu məhkəməyə verməyə ciddi səy göstərilsə, o, qorxuya düşəcək.

***Elxan Nəsibli***

# Şəmsəddin Hacıyev: «Kafedra müdirliyini başqası icra edir»




**«BU NƏ SUALDIR VERİRSİZ?»**

*Bir neçə gündür mətbuat kafedra müdiri olan nazirlərin, komitə sədrlərinin, deputatların, yəni bir neçə vəzifəni icra edənlərin siyahısını dərc edir. AzadlıqRadiosu olaraq biz həmin kafedra müdirlərindən ikisi ilə söhbət etməyə qərar verdik. Telefonla Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, İqtisad Universitetinin rektoru, eləcə də həmin universitetin beynəlxalq iqtisadi münasibətlər kafedrasının müdiri Şəmsəddin Hacıyevə bir sualı iki dəfə təkrarlamalı olduq:*

*- Həm deputat, həm rektor, həm də kafedra müdiri olmaq çətin deyil ki, bir neçə vəzifənin öhdəsindən gəlmək olurmu?*

- Bu nə sualdır verirsiz? Ümumiyyətlə, başa düşmürəm. Əgər çatdıra bilmirəmsə, niyə işləyirəm? Həmin dəqiqə istefa verərəm.

*- Amma yəqin ki, tez-tez ezamiyyətlərdə, səfərlərdə olursuz. Bu, mane olmur ki? İşçilər bundan sui-istifadə etmirlər ki?*

- Mən ezamiyyətlərdə ildə bir dəfə oluram. Hökumət nümayəndəsinin tərkibində, ildə bir-iki dəfə. Daim işimin üstündə oluram.

Burda bir xatırlatma. Bu günlərdə professor Rafiq Əliyev Dövlət Neft Akademiyasında avtomatlaşdırılmış idarəetmə sistemləri kafedrasının müdiri vəzifəsindən çıxarıldı. Neft Akademiyasının prorektoru Qasım Məmmədov «Mediaforum» saytına bunun səbəbini belə izah edib: «Rafiq Əliyev son vaxtlar uzunmüddətli xidməti ezamiyyətlərə gedir, ona görə də kafedranın idarə olunmasında müəyyən problemlər yaranıb...»

*- Siz özünüz də kafedra müdirisiz İqtisad Universitetində.*

- Yox, kafedra müdirliyini artıq başqa adam icra edir.

*- Yəni müdirlikdən getmisiz?*

- Yox. Başqa adam icra edir də. Kafedra müdiri deyiləm. Bir söz də deyim, kimsə saat 10-da gəlib, saat 6-da gedirsə, belə... Kimsə saat 9-dan 11-ə kimi işləyirsə, çatdırırsa... Siz bunu mənə deyirsizsə, mən görsəm çatdıra bilmirəm, həmin dəqiqə gedəcəm.

**NAZİR, KOMİTƏ SƏDRİ, DEPUTAT OLUB DA KAFEDRADA MÜDİRLİK EDƏNLƏR**

*İndi həm də kafedra müdiri olub məsul vəzifələrdə çalışanlardan bəzilərinin adları:*

1. **Misir Mərdanov** - təhsil naziri və BDU-nun ali riyaziyyat kafedrasının müdiri;
2. **Məzahir Pənahov** - MSK sədri və BDU-nun ümumi fizika kafedrasının müdiri;
3. **Yaqub Eyyubov** - baş nazirin müavini, Memarlıq və İnşaat Universitetində bünövrələr, özüllər və yeraltı qurğular kafedrasının müdiri;
4. **Əli Abbasov** - rabitə və informasiya texnologiyaları naziri, Dövlət İqtisad Universitetinin informasiya iqtisadiyyatı və texnologiyaları kafedrasının müdiri;
5. **Hicran Hüseynova** - Ailə, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri, BDU-nun diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müdiri;
6. **Qərib Məmmədov** - Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri, BDU-nun torpaqşünaslıq kafedrasının müdiri;
7. **Abel Məhərrəmov** - deputat, Bakı Dövlət Universitetinin rektoru və həmin universitetdə üzvi kimya kafedrasının müdiri;
8. **Əli Həsənov** – Prezident Administrasiyasında ictimai-siyasi şöbənin müdiri, Prezident yanında Dövlət İdarəçilik Akademiyasında beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının müdiri;
9. **Novruz Məmmədov** - Prezident Administrasiyasının şöbə müdiri, Dillər Universitetinin fransız dilinin leksikologiyası və üslubiyyat kafedrasının müdiri;
10. **Əli Əhmədov** – deputat, YAP-ın sədr müavini, Dövlət Qulluğunu İdarəetmə Şurasının və həmin Şura yanında Korrupsiyaya qarşı mübarizə üzrə komissiyanın üzvü, BDU-nun politologiya və sosiologiya kafedrasının müdiri;
11. **Şəmsəddin Hacıyev** - Dövlət İqtisad Universitetinin rektoru, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər kafedrasının müdiri;
12. **Əhliman Əmiraslanov** – deputat, Tibb Universitetinin rektoru və həmin universitetdə onkologiya kafedrasının müdiri;
13. **Yaqub Mahmudov** – deputat, AMEA Tarix İnstitutunun direktoru, BDU-da qədim dünya və orta əsrlər tarixinin kafedra müdiri;
14. **Bəxtiyar Əliyev** – Milli Məclisin Elm və Təhsil Məsələləri Daimi Komitəsinin sədr müavini, prezident yanında əfv məsələləri komissiyasının, korrupsiyaya qarşı mübarizə üzrə komissiyanın üzvü, MDB Parlament Assambleyasının üzvü, BDU-nun psixologiya kafedrasının müdiri;
15. **Kamilə Əliyeva** – deputat, BDU-nun sosial və pedaqoji psixologiya kafedrasının müdiri;
16. **Hüseynbala Mirələmov** – deputat, ADNA-da neftin, qazın nəqli və saxlanması kafedrasının müdiri;
17. **Rəbiyyət Aslanova** - deputat, Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri, BDU-da fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri;
18. **Ziyafət Əsgərov** – Milli Məclis sədrinin müavini, BDU-da kafedra müdirinin müavini;
19. **Asəf Hacıyev** - Milli Məclisin üzvü, BDU-nun ehtimal nəzəriyyəsi və riyazi statistika kafedrasının müdiri;
20. **Nizami Cəfərov** – Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, Atatürk Mərkəzinin direktoru və BDU-nun ümumi dilçilik kafedrasının müdiri;
21. **Bağır Əsədov** - Ali Məhkəmənin hakimi, BDU-nun mülki hüquq kafedrasının müdiri;
22. **Yusif Məmmədov** - Pedaqoji Universitetin rektoru və həmçinin BDU-da riyazi-fizika tənlikləri kafedrasının müdiri;
23. **Asəf İsgəndərov** - Lənkəran Dövlət Universitetinin rektoru - BDU-da optimallaşdırma və idarəetmə kafedrasının müdiri;
24. **Xanhüseyn Kazımlı** - Milli Məclisin üzvü, Dövlət İqtisad Universitetinin qiymət kafedrasının müdiri;
25. **Astan Şahverdiyev** - Milli Məclisin üzvü, Azərbaycan Texniki Universitetinin istilik və soyuqluq texnikası kafedrasının müdiri.

***Şahnaz Bəylərqızı***

# 50 yaşlı cavan, «Qaya» kimi möhkəm...


Rauf Babayev və Teymur Mirzəyev

**7 il əvvəl Bakıdan İsrailə getmiş məşhur «Qaya» qrupunun yaradıcısı və bədii rəhbəri Teymur Mirzəyev noyabrın 17-də Bakıda idi. «Qaya»nın 50 illik yubiley gecəsinə gəlib. Deyir ki, gecədə «Qaya»nın ilk solistlərindən biri Rauf Babayevə birlikdə oxumaq təklif edib. Ancaq deyəsən özü tək oxuyacaq: «Rauf ciddidir, çox ciddidir, ancaq mən oxuyacağam...»**

**O MƏŞHUR KVARTET**

1961-ci ildə ilk dəfə peşəkar səhnəyə çıxanda 4 nəfər idilər. Bu gün isə 50 illik yubileydə məşhur dördlükdən ikisi – Teymur Mirzəyevlə Rauf Babayev iştirak edir. Lev Yelisavetski ürəyində əməliyyat aparıldığından ABŞ-dan gələ bilməyib. Arif Hacıyev isə 4 il əvvəl vəfat edib.

*Bəs Rauf Babayev yubileydə niyə oxumaq istəmir:* «Biz neçə illərdir bir yerdə oxumuruq. İstəmirəm ki, oxumağım səhnədən pis səslənsin».

**SAHİLBOYU GƏZİRƏM O GÖZƏLİ...**

*Teymur Mirzəyev isə söz verir ki, oxuyacaq. Elə AzadlıqRadiosu üçün də «Qaya»nın məşhur mahnılarından bir neçəsini oxudu:* «Axşamçağı, Sahil bağı, bürünəndə işıqlara gördüm onu, alagözlər, baxdı keçdi, ürəyimi aldı keçdi. Sahilboyu gəzirəm o gözəli, gözəli. Sahilboyu gəzirəm o gözəli, hardasan, hardasan ay yar? Axtarıram onu, tapa bilmirəm də, elə ömür boyu onu axtarıram...»

*Teymur Mirzəyev deyir ki, Bakıya hər gələndə məşhur dördlüyün küçələrində oxuduğu qədim şəhəri gəzir:* «Əsas köhnə küçələrdə gəzirəm, İçərişəhəri gəzirəm. Gedib evimizə, həyətimizə baxıram...»

**NİYƏ «QAYA»?**

Bəs, 50 yaşlı cavanın - «Qaya»nın adı necə yaranıb? Suala belə cavab verirlər: Rauf Babayev: «Bir gün filarmoniyada məşq edəndə bir səs eşitdik: «Ö-zü-nü-zə Qaya adı-nı ve-rin». Ora-bura baxdıq. Gördük heç kəs yoxdur. Fikirləşdik ki, bu adı özümüzə verək. Əlbəttə, zarafatdır. Mənə elə gəlir ki, bunu Teymur demişdi".

Teymur da deyir ki, «yox, sən demişdin. Ancaq çox xoşumuza gəldi».

***Kəbiran Dilavərli***

# Bir şeir dəftəri - 250 min dollara!


Rabindranath Tagore

Nobel mükafatlı hind yazarı Rabindranat Taqorun şeir dəftəri hərraca çıxarılacaq. Bu ilin dekabrında Nyu-Yorkda keçiriləcək Sothebys hərracında şeir dəftərinin təxminən 250 min dollara satılacağı ehtimal edilir. Hərraca Hindistandan da telefonla qoşulmaq imkanı yaradılacaq. 1928-ci ilə aid şeir dəftərində 12 şeir və 12 Benqal mahnısına yazılmış sözlər var. Kitabı hərraca çıxaran şəxs – şairin yaxın dostunun nəslindəndir. Taqor şeir dəftərini dostunun ailəsinə 1930-cu illərdə bağışlayıb.

# Amerikanın ən yaxşı yazarı qadındır




Amerikanın ən nüfuzlu ödüllərindən sayılan – Milli Kitab Mükafatının qalibi qadın yazar oldu. Bu, gənc qaradərili yazar Jesmyn Warddır. Onun "Salvage the Bones" romanı Katrina qasırğası zamanı Afrika əsilli bir Amerika ailəsinin yaşadıqları haqqındadır. ABŞ-da 2011-ci ilin ən yaxşı yazarının müəyyən edildiyi mükafatlandırma mərasimi noyabrın 16-da Manhettendə keçirilib.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


Əkrəm Əylisli: **"Biz Azərbaycanı uçurtmaq yox, qurmaq istəyirik"**


Ramiz Rövşən: **"Şər deməsən, xeyir gəlməz"**


Afaq Məsud: **"Daha «bu, xalqın sevimli dramaturqudur!» təqdimi işləmir"**


**Patrik Züskindin hekayəsi Əli Əkbərin tərcüməsində**


Sahilə İbrahimova **"Əsgər həyatına təhlükə"**

# İran ayətullasından növbəti xəbərdarlıq

«Bir neçə gün əvvəl Azərbaycan haqqında nitq söylədim və o ölkədə islamofobiyaya xəbərdarlıq etdim». Bunu Ayətullah Məkarim Şirazi İran mətbuatına açıqlamasında bildirib.

O, deyib: «Azərbaycanlıların əksəriyyəti şiələrdir. Amma hakimiyyət son zamanlar insanlara təzyiqlər edir və məscidləri dağıdır».

Ayətullah dini ədəbiyyatın - risalələrin yayılmasına qadağalardan da təəssüfünü bildirib: «Son zamanlar tələbə və məmurların məsciddə ibadət etməsinin yasaq olunduğu bildirilir».

Şirazi deyib ki, Azərbaycan xalqının uğuru və sevinci iranlı ayətullahların da istəyidir: «İslamı müdafiə etmək şəriətin tələbidir. Biz istərdik ki, bütün müsəlman ölkələrində, xüsusən də qonşularımızda stabillik hökm sürsün».

Ayətullah Məkarim bundan əvvəl də Azərbaycanı hədələyici bəyanatlar verməşdi. Qeyd etmişdi ki, Azərbaycanın dindar əhalisi bu vəziyyətə dözməyəcək



və onlar zalımların cəzasını verəcəklər.

***Durna Səfərli***

# Dini ayinlərə mane olana 2 min manat cərimə

## Dini qadağaları sərtləşdirən qanun parlamentdə qəbul edildi

**Noyabrın 15-də Milli Məclisin iclasında dini fəaliyyətlə bağlı dəyişikliklər layihəsi qəbul olunub. İnzibati Xətalar Məcəlləsinin 300-cü maddəsinə edilmiş dəyişikliklə dini etiqad haqqında qanunvericiliyin pozulması hesab olunan fəaliyyətlər müəyyənləşdirilib. Yeniliyə görə, kimsə xaricdə dini müəssisədə təhsil almaq istəyirsə, bunun üçün müvafiq icra hakimiyyəti orqanından icazə almalıdır. Həmçinin xaricdə təhsil alan vətəndaşlar tərəfindən islam dininə aid ayin və mərasimlərin keçirilməsi də qanunsuzluq hesab ediləcək.**

### DİNİ QADAĞALARI POZANLAR HƏM CƏRİMƏ, HƏM DƏ HƏBS OLUNACAQ

Dini ədəbiyyat, əşyaların və dini məzmunlu başqa məlumat materialları ixtisaslaşdırılmış satış məntəqələrindən kənarda satıla bilməz. Həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğatın aparılması dini qanunvericiliyin pozulması hesab olunacaq.

Son qeyd olunan qanun pozuntuları həm də cinayət məsuliyyəti hesab olunur. Cinayət Məcəlləsinə nəzərdə tutulan yeniliklərə görə, dini ayinləri icra etməyə mane olmağa görə cərimələrin maksimal həddi 2000 manatadək, dini etiqada məcbur etməyə və dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etməyə görə cərimələrin maksimal həddi 9000 min manatadək artırılır. Bu əməllərə görə 5 ilədək müddətə azadlıqdan məhrumetmə də nəzərdə tutulur.

# Məmurun milyonları kimə qalacaq?



Potanin

**18 milyardı olan Potanin elan edib ki, öz sərvətini uşaqlarına miras qoymayacaq, uşaqlarına bir neçə milyon verəcək. Bir neçə il əvvəl dünyanın o vaxtkı ən varlı adamı Bill Gates elan etmişdi ki, 50 milyardlıq sərvətindən uşaqlarına "cəmi" 10 milyon dollar verəcək. Gates bunu belə izah edirdi ki, asan gələn böyük pullar insanı korlayır, o istəmir ki, uşaqları korlansın.**

O vaxt ağlıma Azərbaycan məmuru gəldi. Niyə məmur? Çünki Amerikada ən varlılar iş adamlarıdır, Azərbaycanda isə yüksək vəzifəli məmurlar. Düşündüm ki, görəsən Azərbaycanın o varlı məmurları da fikirləşə bilərlərmi ki, "böyük və asan pul uşağımı korlayar? Ona var-dövlətimin 100-də 1-ni verim?"

Məmurun bu fikir ağlına gəlsə, o biri fikrin ağla gəlməyi asandır: "Əgər uşaqlarıma varımın 100-də birini verəcəyəmsə, rüşvətlə, korrupsiya ilə bu qədər pul yığmağa dəyərmi?"

### İQTİSADİ TƏCRÜBƏ NƏ DEYİR?

Amerikanın Ailə Biznesi İnstitutunun statistikası göstərir ki, uşaqlara miras qoyulan müəssisələrin 47 faizi 10 il çəkmir ki, dağılır. Babadan nəvəyə verilən bizneslərin 68 faizi dağıllır. 2001-ci ildə Kolumbiya Universitetində Francisco Perez-Gonzalezin araşdırmasına görə, biznes uşaqlara miras qalanda iki ildən sonra şirkətlərin mənfəəti 18 faiz azalır. Bu o deməkdir ki, şəriklər, sərmayəçilər bir azdan qaçmağa başlayacaq.

Əgər var-dövlətini oğul-uşağın salamat saxlaya biləcəyinə qətiyyən əminlik yoxdursa, nəvə-nəticəyə bəs edəcək qədər pul yığmağa dəyərmi? Ancaq o da ola bilər ki, kimsə və ya kimlərsə, Azərbaycanın bütün pulunu qazanmaq istəyirlər. Bu da ola bilər. Ancaq buna da tarixdə cavab var.

### DÜNYANIN BÜTÜN PULU

170 il əvvəl Amerikada kasıb mühacir ailəsində bir uşaq vardı. Adı Andrew Carnegie olan bu kasıb oğlanın arzusu dünyanın bütün pulunu qazanmaq idi. Neçə ildən sonra Carnegie Amerikanın polad sənayesinə sahib idi. Və bir gün bu polad kralı bütün biznes imperiyasını 480 milyon dollara satdı (alıcılıq qabiliyyəti ilə götürsək, bu, indiki pulla 14 milyard dollardır).

Carnegiedən soruşanda ki, biznesini niyə satdı? O, cavab vermişdi ki, dünyanın bütün pulunu qazanmaq istəyirdi, görüb ki, bu, mümkün deyil. Və onun sözlərinə görə, bu, mümkün deyilsə, onda nə fərqi 1 milyon, ya 100 milyon...

***Elxan Nəsibli***

# Ən çox hansı ölkədə içirlər?

**Azərbaycanda əhalinin 15 yaşdan yuxarı olan kəsimi ildə orta hesabla adambaşına 10.6 litr spirtli içki içir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatında belə deyilir. Təşkilatın hesabatında Azərbaycan için 188 ölkə arasında 38-ci yeri tutub. Araşdırmanın nəticələrinə əsasən, Azərbaycanda spirtli içkidən istifadə edənlərin 87 faizi pivəyə üstünlük verir (adama orta hesabla 7 litr düşür). İkinci yerdə çaxırdı, içki kimi onu daha üstün tutanlar 12 faiz təşkil edir. Adambaşına orta hesabla 30 qram düşür. Araq və başqa tünd alkoqollu içkilərə üstünlük verənlərin sayı isə 1 faizdir. Orta hesabla adambaşına 1 litr araq içilir.**

Azərbaycan Cənubi Qafqaz ölkələri arasındakı «alkoqol reytinqində» ikinci yerdədir. Dünya ölkələri arasında 31-ci yeri tutan Ermənistanda il ərzində adambaşına 11.35 litr spirtli içki istehlak edilir. Gürcüstan isə adambaşına düşən 6.4 litrlik spirtli içki ilə 87-ci yerdədir.

Azərbaycanı «müsəlman əhali arasında ən çox içən ölkə» də adlandırmaq olar. Hərçənd Qazaxıstan ildə adambaşına düşən 10.96 litrlik içki ilə Azərbaycanı 360 qram qabaqlayır. Amma rəsmi statistika ilə razılaşsaq, Azərbaycanda əhalinin 93 faizi, Qazaxıstanda isə 47 faizi müsəlmandır.

## Ən çox hansı ölkədə içirlər?




**«ƏN ÇOX İÇƏN ÖLKƏ» MOLDOVADIR**

«Ən çox içən ölkə» isə Moldovadır. ÜST-ün hesabatında deyilir ki, Moldovada adambaşına ilə 18.22 litr spirtli içki düşür. İlk beşliyə 16.45 litr içki istehlakı ilə Çexiya da daxildir. Macarıstan – 16.27, Rusiya -15.76, Ukrayna isə -15.6 litr ilə ilk beşliyi bəzəyiblər. Dünyada ölümün səbəbləri arasında spirtli içkilərə həddindən artıq aludə də yer tutur. Vəfat edənlərin 4 faizinin sonuna həddindən artıq alkoqol içmək çıxıb.

# Tikintidə fəhlə işləyən nadir səs sahibi


Mir Tağı Qəniyev

Tikintidə işləyən usta Seyid kimi təqdim edilən bu adamın oxuduğu yəqin ki, ən məşhur müğənniləri də qısqandırardı. Onun oxudugunu göstərən videonu saytımıza Abbas adlı istifadəçimiz yükləyib. Bundan sonra fəhlə-müğənninin kimliyi ilə maraqlanan jurnalist Nüşabə Fətullayevlə onu tapa bilib. 43 yaşlı Mir Tağı Qəniyev 90-cı illərdə öz sənətini inkişaf etdirmək üçün Bakıya gəlib. Amma heç bir yanda qəbul edilməyib və dolanmaq üçün fəhləliyə başlayıb. Xanəndəliklə on ildən çoxdur vidalaşıb. Təsadüfi bir video onu bir daha yada saldı. Qulaq asanlar onun nadir səsinə heyran qaldı. Fəhlə-müğənni istəsələr yenidən oxumağa başlayacağını deyir.

**Onunla qısa söhbətə və necə oxumasına AzadliqRadiosu.az-da qulaq asa bilərsiniz.**

# Simsiz teleqraf


*Bakı «xruşşovka»larından biri... Yüklədi: Mahir Məmmədli*

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**
efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

24 saat

necə dinləməli...

HotBird 13°E

**Kanalın adı**
**Radio bölümündə**
**Radio Free Europe/Radio Liberty**
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

TURKSAT 42° E

**Kanalın adı**
**Radio bölümündə**
**Azadliq VOA Azeri**
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Mobil telefonda canlı:

İndi 3G, GPRS və ya Wi Fi-la
günün 24 saatı
radiomuzu canlı dinləmək olur...
Ətraflı: **AzadliqRadiosu.az**-da

## AzadliqRadiosu.az-da video

Tikintidə fəhlə işləyən nadir səs sahibi...




**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** 436-77-41

Bizimlə əlaqə:

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tblisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz